**Əliyev B.Ə., Əlizadə C.Ş.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2018.57.6-19**

# Etnik ekstremizm anlayışı və onu yaradan səbəblər

**Xülasə:** Müasir dövrdə dünya ictimaiyyətinin təbəqələşməsi hələ də davam etməkdədir**.** Hazırki dövrdə dünyada baş verən dinamik dəyişikliklər bütün ictimai sferalarda müasir quruluşların inteqrasiyasına maneəçilik törədir. Ekstremizm və terrorçuluq bütün dünya bəşəriyyətini bir-birinə qarşı səngərlərə ayırmağa, onları bir-biriləri ilə heç zaman müzakirə, dialoq aparmayacaq qədər düşmənçilik toxumları səpməyə çalışan məfhumlardır.

**Açar sözlər:** ekstremizm; etnik ekstremizm; etnik ekstremizmiyaradan səbəblər; etnos.

Ekstremizm sözünün hərfi mənasına baxsaq görərik ki, bu söz antik dövrdə ortaya çıxmışdır. Belə ki, qədin Yunan filosofu Aristotel stabilliyə zidd olan hadisələri təsvir etmək üçün “eschatos” sözündən istifadə etmişdir. Daha sonra, bu kəlimə latın dilinə keçərək “extremis” şəklini almış və ən ucqar məntəqəni təsvir etmək üçün işlədilmişdir. Məsələn, latınca “extremitas mundi” ifadəsi “dünyanın sərhədi” mənasına gəlmişdir.

Zaman keçdikcə, bu sözün mənası dəyişmiş və ifadə daha yeni çalarlar almışdır. Məsələn, 1945-ci ildən sonra “ekstremizm” anlayışı ifrat sağ və sol mövqedən çıxış edən diktatura formaları nəzərdə tutulmuşdur**.** Ötən əsrin 70-ci illərindən isə bu söz mövcud siyasi rejimi və ictimai quruluşu tam inkar edən, konstruktiv dialoq yerinə zorakılığa əl atan, terror, güc yolu ilə meydan oxuyan

---

♦**Əliyev Bəxtiyar Əbdürəhman oğlu -** h.ü.f.d., dosent, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun “Dövlət təhlükəsizliyinin hüquqi təminatı” şöbəsinin müdiri (Azərbaycan).E-mail:antiterror-baku@mail.ru

**Əlizadə Cavid Şirzad oğlu -** AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun “Dövlət təhlükəsizliyinin hüquqi təminatı” şöbəsinin elmi işçisi (Azərbaycan).E-mail: cavid6455@mail.ru

cəmiyyətdə xof yaratmağa çalışan antidemokratik siyasi güclər barəsində istifadə olunmuşdur. Ekstremizm – cəmiyyətdə qəbul normaları inkar edərək özünün fikirlərinə və ya inancına bağlılıqdır [5].

Beləliklə günümüzdə ektremizm termini ifrat ideyalara bağlı olan siyasi güzəştlərə, danışıqlara getmək istəməyən, terror, hərc-mərclik, iğtişaş yolu ilə meydan oxumağa çalışan siyasi qrup və təşkilatlar haqqında istifadə edilir. Beləliklə, siyasi-elmi anlamda ekstremizmin radikalizmdən ən böyük fərqi ifrat ideyaların zorakı metodlarla həyata keçirilməsidir.

“Ekstremizm” terminin fəlsəfi analizi köhnə problemin yeni aspektlərini görməyə və aktuallaşdırmağa imkan verir. Dövlət daxilində eləcə də beynəlxalq sahələrdə geniş vüsət alan ekstremizmə və onunla mübarizəyə dair qanunlar, konstitusiyalar, beynəlxalq hüquqi sənədlər və digər hüquqi aktlar həsr olunmuşdur.

Ekstremizm fərdlərin, qrupların, təşkilatların elə bir öhdəliyidir ki, burada radikal baxışlar, mövqelər öz əksini tapır. Ekstremizm həm ictimai şüurun sahəsinə təsir etməklə sosial psixologiya, əxlaq, ideologiya və s. onlar arasında yaranır. Qeyd etmək lazımdır ki, daha çox ekstremizm sosial qruplarda “sosial ekstremizm”, etnik qruplarda “etnik və ya milli ekstremizm”, ictimai birliklər və siyasi partiyalarda “siyasi ekstremizm” kimi təsvir olunur.

Ekstremizmi yaradan müxtəlif səbəblər vardır ki, bunlar aşağıda göstərilmişdir:

- ideoloji maraqların üstünlük təşkil etməsi;
- sosial qrupları çevirmək arzusu və faktiki vəziyyətlə narazılığın artması;
- hakimiyyətə qarşı fəaliyyətin yaradılması.

Etnik ekstremizm ekstremizmin bir növü olmaqla müasir dövrdə dünyada baş verən siyasi hadisələr və proseslər, beynəlxalq münaqişələr dünya dövlətlərinə öz təsirini göstərir. Hər bir insan müəyyən bir millətə mənsubdur. Millətsiz insan yoxdur. Millət etnosun inkişafının yüksək formasıdır, yəni millət etnik inkişafın

müəyyən mərhələsinin məhsuludur. Uzun müddət siyasi proseslərin ziddiyyətli inkişafı milli münasibətlər sahəsində qeyri-sabit vəziyyət yaratmış, milli qapalılıq, yerliçilik, milli təkəbbür hisslərini gücləndirmişdir [1].

Etnik ekstremizm şiddətin başqa ümumi bir forması kimi ölkənin təhlükəsizliyi, ərazi bütövlüyü, eləcə də cəmiyyət və dövlət üçün təhlükə mənbəyi hesab olunur.

Etnik ekstremizm təkcə baş verdiyi ərazilərdə yox, eyni zamanda, oraya gələn insanların həyatında da öz dərin izlərini qoyur. Problem qlobal miqyasda həllini tapmadıqca bundan milyonlarla insan əziyyət çəkəcək və tarix bu itkili səhifələrlə zəngin olacaq. "Millətlərin öz müqəddəratını təyinetmə hüququ"nu əsas istinad mənbəyi kimi qəbul edərək baş qaldıran separat hərəkatlar nəinki əhatə etdiyi regionlarda, eyni zamanda bütün dünyada dövlətlərin ərazi bütövlüyünü şübhə altına alır. Xalqların birgəyaşayışına inamı sarsıdır, sülhü, sabitliyi, təhlükəsizliyi ciddi şəkildə təhdid edən qlobal problemə çevrilir [7, s. 84-97].

Qeyd etməkdə fayda var ki, müasir dövrdə həll olunmamış münaqişələr etnik ekstremizm üçün münbit şərait yaradır. Etnik ekstremizm formasından və səviyyəsindən asılı olmayaraq beynəlxalq təhlükəsizlik balansına mənfi təsir edən amillərdəndir. Tarixin müxtəlif dönəmlərində baş qaldırmış etnik ekstremizm meyilləri bəzən kiçik miqyaslı - məhəlli müharibələrə, bəzənsə millətlərarası ciddi qarşıdurmalara səbəb olmuşdur. Məsələn, tarixi təcrübədir ki, bir sıra imperiyalar etnik ekstremizm yəni separatist tendensiyalar nəticəsində parçalanmışdır.

Etnik ekstremizm faktiki olaraq bir sıra xalqların tarixində hərəkətverici (əslində, dağıdıcı) təsir qüvvəsi kimi çıxış etmişdir. Etnik ekstremizm müəyyən qrupun qanuna zidd formada dövlətin və cəmiyyətin fundamental əsaslarını sarsıtmaqla, ölkənin milli təhlükəsizliyinə təhlükə mənbəyi sayılan fəaliyyətdir. Etnik ekstremizm bir tərəfdən "xalqların öz müqəddaratını təyin etmək" xülyasından doğursa, digər tərəfdən beynəlxalq hüququn hamılıqla tanınmış dövlətlərin "suverenlik", "ərazi bütövlüyü", "sərhədlərin toxunulmazlığı"

prinsiplərini pozmaqla beynəlxalq aləmdə millətlərarası və dövlətlərarası münaqişə ocaqlarının meydana gəlməsinə real zəmin yaradır. Bəzən dini və milli azlıqların, insan və xalqların hüquqlarının kobud şəkildə pozulması halları separatizm ocağının alovlanmasını sürətləndirir, yeni, gənc milli dövlətlərin yaranmasında mühüm rol oynayır. Bu gün, XXI əsrin ilk onilliklərində separatizmə meyl həm inkişaf etmiş, (Kanada İspaniya və s.) həm də, inkişaf etməkdə olan (Hindistan, Pakistan, İraq və Afrika dövlətləri) ölkələr üçün ciddi problemlər yaratmışdır [2, s. 90].

Bir ölkənin siyasi prosesində etnik ekstremizm amillərini əsasən iki əsas qrupa bölünür. Birinci qrupa: cəmiyyətdə və dövlətdə baş verən prosesləri və bütünlüklə ölkə miqyaslı amilləri göstərmək olar. İkinci qrupa isə regional və etnik xüsusiyyətlərə malik olan amilləri aid etmək olar.

Beləliklə, birinci qrup faktlara əsasən ölkə sisteminin böhranı və uzun müddət ərzində inkişaf edən ictimai əlaqələrin qeyri-sabitliyinə səbəb olur.

Regional aspektin təqdim olunduğu ikinci qrupda isə iqtisadi səbəblər daha çox əhəmiyyətlidir. Birincisi, bəzi bölgələrdə resursların çıxarılması sahəsində əhəmiyyətli maddi bazanın mövcudluğu və keçid dövründə onların yenidən bölüşdürülməsi problemidir.

Etnik ekstremizmin geoiqtisadi göstəricilərinin başqa bir nümunəsi kimi fərqli millətlərin xalqları arasındakı əlaqələrin ağırlaşmasıdır ki, bunun əsas səbəbi torpaq sahələrinin paylanması və kollektiv təsərrüfat mülkiyyətinin yenidən bölüşdürülməsidir. Belə problemlərin həlli, bir qayda olaraq, etnik ərazilərin ayrılmasına və fərdi muxtariyyətlərin yaranmasına səbəb olur.

Tarix boyu şəxsiyyətlər, ideologiyalar, siniflərarası, siyasi, sosial və s. ciddi münaqişələr baş vermişdir. Bu münaqişələrdən biri də etnik münaqişələrdir. Etnik münaqişə və problemlər ümumi şəkildə sosial ziddiyyətlərin konkret təzahürü şəklində yaranır. Bu münaqişələr adətən müəyyən ölkənin daxilində baş verir [4, s. 19-25].

Etnik ekstremizm insanların qorxu və nifrətlərindən istifadə edərək onları birləşdirən və ekspluatasiya edən təşkilatlanmış qüvvə kimi də göstərilir. Ekstremizm arasında ən aktual olan formalardan biri etnik ekstremizmdir. Bu forma millət və xalqlar arasında nifaq toxumları səpmək, düşmənçilik yaratmaqla özünü göstərir. "Öz millətinin" maraqlarını ifadə edərək başqa xalqların hüquq və azadlıqlarını qəbul etmir. Millətçi ekstremizm orqanik olaraq separatizmlə (separatisme fransız sözü olub ayrı, ayrıca deməkdir) birbaşa əlaqəlidir. O, çoxmillətli dövlətlərin dağılmasını, yerli millətin ali hakimiyyətinin təsdiqinə istiqamətlənir. Ekstremizmi dünyada aktual edən formalarından biri də elə millətçi ekstremizmdir. Millətçi ekstremizm başqa bir millətə qarşı qanunsuz şiddətin istifadə edilməsi zamanı yaranır. Millətçi ekstremizm, iqtisadi müstəqillik, mədəniyyət, milli dəyərlərə, milli dilin təmizliyi daxil olmaqla, başqa bir millətin nümayəndəsi olan düşmənin təsvirinə əsaslanır. Bu forma millət və xalqlar arasında nifaq toxumları səpmək, düşmənçilik yaratmaqla özünü göstərir.

Etnik ekstremizmin xüsusiyyətlərinin təhlili zamanı ilk növbədə "etnos" anlayışını müəyyənləşdirmək lazımdır. Etnos - sözün dar mənasında, nisbətən sabit xüsusiyyətləri olan mədəniyyət və psixikaya malik, habelə öz vəhdətini insanların başqa qruplarından fərqləndirən, bir dildə danışan insanların tarixən yaranmış məcmusu [6]. Etnos üzvlərinin öz qrup vəhdətini dərk etmələrinə etnik özünü dərketmə deyilir; bunun da zahiri əlaməti özünü adlandırma - etnonimdir. Etnos son dərəcə mürəkkəb sosial sistemdir. Etnoslararası qarşılıqlı əlaqə olmayan əlaqələrin akkulturasiyayadək (bir etnos tərəfindən digərinin mədəniyyətinin qismən mənimsənilməsi) və assimilyasiyayadək (bir etnosun digərinin tərkibində əriməsi) çox müxtəlif formalarda ola bilər. Etnik və etnoslararası proseslər birləşdirici (etnointeqrasiya) və ayırıcı (etnik differensiya və parsiasiya) xüsusiyyətlərə malik ola bilər. Bu halda etnik gərginlik və açıq münaqişələr mümkündür.

Etnosun əsas xüsusiyyətlərini nə təşkil edir? Hər bir insanda bu və ya digər birliyə-yəni ailəyə, nəslə, peşəyə və s. mənsub olmaq kimi fundamental tələbat var. Bu tələbatlardan ən vacibini etnik identiklik təşkil edir [2, s. 75].

Digər sosial birliklərdən fərqli olaraq (ərazi, peşə, təhsil və s.) etnik birliklər daha sabitdir. Hər bir etnos öz mədəniyyətini, ənənəvi məişətini və mənəvi birliyini yalnız öz dövlətini yaratmaqla qoruya biləcək hesab edir. Etnosların hərəkətverici qüvvəsi kimi özünümüdafiə və öz dəyərlərinin və ənənələrinin qorunması tələbatı çıxış edir. Onun gücü də bundadır. Eyni zamanda, “hər bir etnosa-bir dövlət” ideyası da utopiyadır. Azsaylı etnik qrupların hər birinin dövlət yaratmaq istəyi çoxsaylı və uzunmüddətli etnik münaqişələrlə nəticələnə bilər.

Azərbaycanda tarixən müxtəlif millətlər, azsaylı xalqlar, milli azlıqlar və etnik qruplar yaşayıb yaradıblar. Onlar bugün də bu ərazidə yaşamaqdadırlar. Tarixi təcrübə göstərir ki. Azərbaycanda heç bir xalqa və millətə qarşı ayrıseçkilik münasibəti olmamışdır. Buna görə də burada yaşayan etnosların heç biri özünü yad etnos hesab etmir, özünü digərlərinə qarşı qoymur. Yalnız ermənilərdən başqa. Azərbaycanda məskunlaşmış müxtəlif etnik qruplar arasında ortaq əlamətlər, birləşdirici xüsusiyyətlər formalaşmışdır, onlar etnik qruplara xas olan fərqləndirici əlamətlərlə və keyfiyyətlərlə müqayisədə həmişə üstünlük təşkil etmişdir. Ərazi ümumiliyi, din birliyi, maddi və mənəvi mədəniyyət yaxınlığı, birgə yaşayış tərzi Azərbaycanda etnik qarşıdurmanın qarşısını alan, vahid Vətən idealını inama çevirən amillərdəndir. Azərbaycan dili bu ərazidə yaşayan bütün etnosların ünsiyyət vasitəsinə çevrilib, ümumxalq dili rolunu oynamışdır. Elə buna görə də böyük rus mütəfəkkirləri M.Y. Lermontov, Bestujev Marlinski XIX əsrdə Azərbaycan dilini Ön Asiyada və Qafqazda təsir dairəsinə görə Avropada fransız dilinin rolu ilə müqayisə etmişlər. Göründüyü kimi, etnosu formalaşdıran və mövcudluğunu, yaşamasını təmin edən bu amillər tarixən Azərbaycanda ixtilafdan, münaqişədən daha çox birliyə, həmrəyliyə real obyektiv zəmin yaratmışdır. Biz bununla heç də etnosun əsl əlamətlərindən birinin - etnik özünəməxsusluğun

mövcudluğunu arxa plana keçirmək fikrində deyilik. Sadəcə olaraq, demək istəyirik ki, ortaq əlamətlərin, birləşdirici keyfiyyətlərin, mənafe eyniliyinin sayəsində Azərbaycanda aparıcı xalqın etnik qruplara, azsaylı etnoslara qarşı ayrıseçkilik, düşmənçilik münasibəti olmayıb və yoxdur [2].

Nəticədə qeyd edə bilərik ki,etnik ekstremizmin qarşısının alınması, vətəndaşlarımızın xarici təsirlərdən qorunması, əhalinin təhlükəsizliyinin təmin edilməsi vacib məsələlərdir. Dünyada minlərlə xalq mövcuddur. Əgər müasir dövrdə hər xalq müstəqil idarətetməsini tələb edərsə, bu dünyada xaosa səbəb olar. Çünki dünya dövlətlərində müxtəlif, dinə, irqə, millətə mənsub insanlar yaşayır. Buna görə də, dövlətlərin ərazi bütövlüyünü və suverenliyini təmin etmək əsas götürülməlidir.

## Biblioqrafiya

1. Ağayev İ. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər, Bakı, «MBM», 2006.
2. Nuruzadə Ş. Etnik münaqişələ. Dərs vəsaiti. Bakı, 2015.
3. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане в XIX – начале XX вв. Баку: Алтай, 1999.
4. Топольницка М.І. Етнічий конфлікт як чинник розпаду держави (на прикладі Югославii) / Альманах міжнародного права. № 20, 2018, с. 19-25.
5. https://az.trend.az/azerbaijan/politics/2727982.html
6. https://az.wikipedia.org/wiki/Etnos
7. Hoff W. The Immigration Crisis: A Stress Test of the European Legal Culture. DOI: 10.7206/kp.2080-1084.175 / The Critique of Law. Independent Legal Studies. 2018; 10 (1), pp. 84-97.